**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ERMƏNİSTANIN İŞĞALI TƏHLÜKƏSİNƏ QARŞI MÜBARİZƏSİ (1988-1993-CÜ İLLƏR)

| | |
|---|---|
| İxtisas: | 5503.02 – Vətən tarixi |
| Elm sahəsi: | Tarix |
| İddiaçı: | **Rəna Urfullah qızı Qurbanova** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2025**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor **İsmayıl Muxtar oğlu Hacıyev**

**Rəsmi opponentlər:** Tarix elmləri doktoru, professor **Oqtay Balaqədəş oğlu Sultanov**

Tarix elmləri doktoru, professor **Havva İsa qızı Məmmədova**

Tarix üzrə fəlsəfə doktoru, dosent **Mehman Sərxan oğlu Şabanov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
**İsmayıl Muxtar oğlu Hacıyev**

Dissertasiya şurasının elmi katibi: Tarix elmləri doktoru, dosent
**Emin Arif oğlu Şıxəliyev**

Elmi seminarın sədri: Tarix elmləri doktoru, dosent
**Fəxrəddin Adil oğlu Cəfərov**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəlləri təkcə Azərbaycanın deyil, ümumilikdə dünyanın tarixinə əsaslı dəyişikliklər dövrü kimi daxil olmuşdur. Sovet İttifaqının, kommunist sisteminin tənəzzülü, məğlubiyyəti və süqutu ilə beynəlxalq sistemdə ikiqütblü dünya və ya Yalta – Potsdam dövrü başa çatmış, çoxqütblü dünya sisteminə transformasiya başlamışdır. İttifaqın digər ölkələri kimi Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etmişdi. Bu, həm XX yüzilliyin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində baş verən ictimai-siyasi proseslərin, həm də Azərbaycan xalqının milli azadlıq mübarizəsinin nəticəsi idi. Dövlət müstəqilliyinin bərpası ərəfəsində Azərbaycan qonşu və ittifaqın üzvü olan Ermənistanın əsassız ərazi iddiaları və təcavüzkar müharibəsi ilə üz-üzə qalmışdır. Vətən tarixşünaslığında Ermənistanın Azərbaycana ərazi iddiaları və hərbi təcavüzü əsasən I Qarabağ müharibəsi kontekstində öyrənilmiş, digər istiqamətlərdə aparılan döyüşlər isə bu müharibənin təzahürləri kimi qiymətləndirilmişdir. Lakin XIX əsrdən bəri Azərbaycana qarşı ermənilərin əsassız ərazi iddialarının sistemli təhlili göstərir ki, XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində Ermənistanın Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qarşı apardığı müharibəni yalnız Qarabağ müharibəsinin təzahürlərindən biri kimi qiymətləndirmək qeyri-dəqiqdir və ya tam dolğun elmi qənaət deyildir. Bu baxımdan 1988-1993-cü illərdə Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Ermənistanın işğalı təhlükəsinə qarşı mübarizəsi mövzusunun tədqiqi tarixşünaslıqda hələ də qalmaqda olan bəzi suallara aydınlıq gətirilməsi baxımından aktualdır.

Mövzunun tədqiqini aktuallaşdıran digər bir məqam muxtar respublikanın Ermənistanın hərbi təcavüzündən və işğal olunmaq təhlükəsindən necə xilas olması ilə bağlıdır. Nəinki ölkədə, demək olar ki, bütün post-sovet məkanında xaos və anarxiyanın hökm sürdüyü, Ermənistanın hərbi təcavüzünün günü-gündən gücləndiyi şəraitdə muxtar respublikada ictimai-siyasi sabitliyin təmin olunması mexanizmlərinin öyrənilməsi, hərbi təcavüzə qarşı xarici siyasi

vasitələrlə mübarizənin necə təşkil olunmasının tədqiqi mövzunun praktiki aktuallığını şərtləndirir.

Öyrənilməsi vacib olan məsələlərdən biri də həmin illərdə Naxçıvan Muxtar Respublikası istiqamətində erməni silahlı dəstələrinin, sonrakı dövrdə isə Ermənistan ordusunun apardığı müharibənin strategiyasının öyrənilməsidir. Müharibənin Kərki-Sədərək-Qarağac istiqamətində başladılması, Batabat-Biçənək xətti istiqamətində diversiya fəaliyyətləri, Ordubad istiqamətində hücumların nisbətən daha az müşahidə edilməsinin hərbi strateji baxımdan təhlili vacibdir. Bu baxımdan həmin hücumlarını sistemsiz ayrı-ayrı döyüşlər kimi deyil, vahid müharibənin hissələri kimi tədqiq etməyə ehtiyac vardır.

Tədqiq olunan illərdə Ermənistanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına qarşı müharibəsi uğursuzluğa düçar olmuşdur. Bu uğursuzluq muxtar respublikada hərbi və milli təhlükəsizliyə yönəlmiş təhdidlərin vaxtında aşkarlanması, bu sahədə sistemli işin aparılması ilə bağlı idi. Siyasi lider – Heydər Əliyev amili və region əhalisində tarixən formalaşmış təfəkkür tərzi bu sistemin formalaşmasında, işğalçıya qarşı çevik reaksiyanın meydana çıxmasında vacib rol oynamışdır. Ümummilli lider Heydər Əliyev həmin illərdə Naxçıvan əhalisinin işğal təhlükəsinə qarşı mübarizəsinə yüksək qiymət verərək demişdir:

*“Naxçıvan Muxtar Respublikasının vətəndaşları heç vaxt iradələrini itirməyiblər, sınmayıblar, Azərbaycanın ərazisini mərdliklə, cəsurluqla qoruyublar və qoruyurlar, öz torpaqlarının keşiyində durublar, Ermənistanla üzbəüz dayanaraq öz torpaqlarını son dəqiqəyə qədər qorumağa qabil və hazırdırlar”.*[1]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə həmin illəri Naxçıvan üçün “əsl sınaq dövrü” adlandırmışdır. O, mövcud çətinliklərdən muxtar respublikanın şərəflə çıxmasında “lider – xalq modeli”nin əhəmiyyətini aydın şəkildə xarakterizə etmişdir:

---

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, c. 5, – 1998. – s. 133-134.

*“1980-ci illərin sonları Naxçıvan üçün əsl sınaq dövrü idi. Xoşbəxtlikdən yenə də Ulu Öndərin rəhbərliyi ilə naxçıvanlılar bu ağır sınaqdan şərəflə çıxa bilmişlər. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi. Çünki artıq erməni millətçiləri Azərbaycana qarşı işğalçılıq siyasətinə başlamışdılar və onların məkrli planlarında Naxçıvanın işğalı da var idi”.*[2]

Məhz lider-xalq birliyi, nəinki Ermənistanın hərbi təcavüzünün qarşısını almağa, keçmiş Sovet ordusu hissələrinin Naxçıvan Muxtar Respublikası ərazisindən tam şəkildə çıxarılmasına imkan vermişdir. Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də həmin tarixi proseslərin öyrənilməsidir.

Təbiidir ki, hər bir hərbi-siyasi prosesin ictimai-siyasi təzahürləri ilə yanaşı iqtisadi və sosial təsirləri də olur. Əksər hallarda hərbi təcavüzə məruz qalan tərəf üçün bu sosial və iqtisadi təsirlər mənfi olur. Bu baxımdan Ermənistanın hərbi təcavüzü və Naxçıvan Muxtar Respublikasına qarşı həyata keçirdiyi blokada siyasətinin yaratdığı iqtisadi və sosial problemlərin, habelə onların aradan qaldırılması yollarının öyrənilməsi Vətən tarixşünaslığı üçün aktual olan məsələlərdən biridir.

Azərbaycan tarixşünaslığında XX əsrin 80-ci illərinin sonu – 90-cı illərin əvvəlinə dair əsərlərin yazılması ilə bağlı obyektiv və subyektiv səbəblərdən irəli gələn çətinliklər mövcuddur. Bu barədə yazılan kitab və məqalələrin böyük əksəriyyəti subyektiv və ya ideoloji xarakter daşıyır. Bu isə məsələlərin elmi kontekstdə araşdırılmasını zəruri edir. Vətən tarixşünaslığında birbaşa olaraq 1988-1993-cü illər xronoloji çərçivəsində Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Ermənistanın işğal təhlükəsinə qarşı mübarizəsini tədqiqat obyekti olaraq müəyyənləşdirən əsərlər olmasa da, bir çox alim və mütəxəssislər əsərlərində müdafiə və təhlükəsizlik məsələlərinə ümumi kontekstdə diqqət yetirmişlər. İsmayıl Hacıyev, Ədalət Qasımov, Məmməd

[2] Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [Çoxcildli] / İ.H.Əliyev. – Bakı: Azərnəşr, c. 62, – 2018. – s. 33-34.

Məmmədov, Mais Əmrahov, Oqtay Sultanov, Əli Əliyev, Elmira Axundova, Zəhmət Şahverdiyev, İsmayıl Zeynalov, Ələkbər Cabbarlı, Musa Qasımlı, Bahar Muradova, Elçin Əhmədov, Həvva Məmmədova, Həmzə Cəfərov, Abdulla Mustafayev, Hafizə Əliyeva, Vaqif Məmmədov, Rafiq Rəhimov, Mehman Şabanov və başqalarının əsərləri bu baxımdan xüsusən diqqəti cəlb edir.

İ.Hacıyev SSRİ-nin süqutu ərəfəsində və müstəqilliyin əldə olunmasından sonrakı dövrdə Naxçıvan Muxtar Respublikasının tarixinə dair yazdığı demək olar ki, bütün əsərlərində hərbi-siyasi proseslərdən, müdafiə tədbirlərindən bəhs etmişdir. Bu baxımdan "Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri", "Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında", "Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı" adlı əsərlər xüsusilə diqqəti cəlb edir.[3]

Ə.Qasımovun monoqrafiya və məqalələrində Heydər Əliyevin həm Azərbaycan SSR-in, həm də müstəqil Azərbaycan Respublikasının başçısı kimi Naxçıvan Muxtar Respublikasının müdafiəsi naminə göstərdiyi çoxcəhətli fəaliyyəti tədqiq olunmuşdur. O, 1990-1993-cü illərdə Ermənistanın Naxçıvanı işğal etməsinin qarşısını almaq naminə görülən işləri əsərlərində təhlil etmişdir.[4]

M. Məmmədovun əsərlərində tədqiqat obyekti olaraq 1988-1993-cü illərdə baş verən ictimai-siyasi proseslər və Naxçıvanın inkişafı məsələləri müəyyənləşdirilmişdir. Birmənalı şəkildə qeyd etmək

---

[3] Hacıyev, İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı / İ.M.Hacıyev. – Naxçıvan: Əcəmi, – 2011. – 272 s.; Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri / İ.M.Hacıyev. – Naxçıvan: Əcəmi, – 2012. – 192 s.; Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında / İ.M.Hacıyev. – Bakı: Elm və təhsil, – 2016. – 360 s.; Гаджиев, И.М. Территориальные притязания преступления армян против Азербайджана / И.М.Гаджиев. – Москва: Столица, – 2016. – 182 с.

[4] Qasımov, Ə. Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi / Ə.Q.Qasımov. – Bakı: Turxan, – 264 s.; Naxçıvanın erməni təcavüzündən qorunmasında Heydər Əliyevin xidmətləri // – Bakı: Tarix və onun problemləri, – 2009. № 3, – s. 215-222.

lazımdır ki, bu əsərlər Naxçıvanın Ermənistanın hərbi təcavüzünə qarşı mübarizəsini ən yaxşı şəkildə əks etdirən tədqiqatlardandır.[5]

M.Əmrahov XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatının tarixini tədqiq edərkən onun kulminasiyası sayılan 80-90-cı illərindəki proseslərdən də bəhs etmişdir. Onun əsərində bu proseslərin mühüm fazası kimi Naxçıvanda baş verən proseslər də təhlil olunmuşdur.[6]

O.Sultanovun əsəri isə bütövlükdə XX yüzilliyin 80-90-cı illərində Azərbaycanda siyasi mübarizəyə həsr olunmuşdur.[7] Müəllif əsərlərində həmin illərdə dünyada və SSRİ-də baş verən siyasi proseslərin Azərbaycandakı şəraitə və xalq hərəkatının yüksəlişinə təsirlərini müfəssəl şəkildə tədqiq etmişdir. O, Azərbaycanda xalq hərəkatının və demokratik qüvvələrin təşəkkülü prosesini dərindən təhlil etmiş, həmin dövrdəki siyasi və hərbi böhranların obyektiv səbəblərini üzə çıxarmışdır.[8]

Ə.Əliyev Naxçıvanda 1914-1992-ci illərdə baş vermiş hadisələri həm tarixi mənbələrə, həm də şəxsi şahidliklərinə əsaslanmaqla təhlil etmişdir. Xüsusən Naxçıvanda Sovet İmperiyasına və Ermənistanın hərbi təcavüzünə qarşı ilk etirazların meydana çıxması, işğalın qarşısının alınması üçün həyata keçirilən ilk müdafiə tədbirləri, yaranmış hərbi birləşmələrin silah təchizatı məsələlərinin həlli üçün atılan addımlar barədə müəllif əsərində maraqlı məlumatlar vermişdir.[9]

---

[5] Məmmədov, M.Y. Naxçıvan  Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər) / M.Y.Məmmədov. – Bakı: Şirvannəşr, – 2005. – 208 s.; Siyasətdə Naxçıvan dərsləri / M.Məmmədov. – Bakı: Araz, -2009. – 416 s.; Məmmədov, M.Y. Naxçıvan: dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı / M.Y.Məmmədov. – Bakı: Şirvannəşr, – 2011. – 302 s.

[6] Əmrahov, M. İ. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. Ali məktəblər üçün dərslik. – Bakı: ADPU-nun nəşriyyatı, – 2018. – 484 s.

[7] Sultanov, O.B. XX əsrin 80-cı illərinin sonu, 90-cı illərinin əvvəllərində Azərbaycanda siyasi mübarizə  / O.B.Sultanov. – Bakı: Maarif, – 1995. – 232 s.

[8] Sultanov, O.B. XX əsrin 80-cı illərinin sonu, 90-cı illərinin əvvəllərində Azərbaycanda siyasi mübarizə  / O.B.Sultanov. – Bakı: Elm və təhsil,  – 2010.  – 288 s.

[9] Əliyev, Ə.İ. Əlincə yaddaşı: Naxçıvan 1914-1992 / Ə.İ.Əliyev. – Bakı: Gənclik,  – 1997. – 304 s.

E.Axundovanın sənədlər, mənbələr, şahidlərin fikirləri və xatirələri əsasında yazdığı "Şəxsiyyət və zaman" çoxcildliyi seriyasından V kitab Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrünə həsr edilmişdir.[10] Əsər elmi xarakter daşımasa da, mənbələrinin zənginliyi həmin dövrdə muxtar respublikada hərbi siyasi proseslərə dair bir çox yeni faktları müəyyənləşdirməyə və onları elmi dövriyyəyə gətirməyə imkan verir.

M.Qasımlı və B.Muradovanın 2018-ci ildə çap olunan "Azərbaycan parlamentarizmi tarixi" əsərinin ikinci cildində həmin dövrdə Azərbaycan parlamentində Naxçıvana qarşı Ermənistanın hərbi təcavüzü ilə bağlı aparılan müzakirələr arxiv sənədləri əsasında əks etdirilmişdir.[11] M.Qasımlının "Azərbaycan Respublikasının tarixi" əsərində Naxçıvanda milli müstəqillik uğrunda mübarizə, sərhəd hərəkatı, ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının müdafiəsi və inkişafının təmin edilməsi istiqamətində fəaliyyəti arxiv sənədləri və digər mötəbər mənbələr əsasında tədqiq edilmişdir.[12]

E.Əhmədovun monoqrafiyasında Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzünün ən müxtəlif aspektlərinə diqqət yetirilmiş, XX əsrin 80-ci illərinin sonlarında həyata keçirilən etnik təmizləmə prosesinin ölkənin digər ərazilərinə olduğu kimi, muxtar respublikaya təsirlərinə dair də müəyyən məlumatlar təqdim olunmuşdur.[13] Müəllifin digər bir kitabında 1987-2011-ci illərdə Ermənistanın Azərbaycana, həmçinin Naxçıvan Muxtar Respublikasına

---

[10] Axundova, E. Şəxsiyyət və zaman [6 hissə] / E.Axundova. – Bakı: CBS, V hissə. – 2013. – 736 s.

[11] Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi: [2 cilddə] / M.C. Qasımlı, B. Muradova. – Bakı: Mütərcim, c. 2, – 2018. – 680 s.

[12] Qasımlı, M.C. Azərbaycan Respublikasının tarixi (1991-2021): [2 cilddə]. – Bakı: Bakı Dövlət Universiteti, c. I. – 2021. – 384 s.

[13] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: etnik təmizləmə, soyqırımı, terror, işğal / E.İ. Əhmədov. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, – 2015. c. 2, – 408 s.

hərbi təcavüzünə dair hadisələr və faktlar xronoloji ardıcıllıqla təqdim edilmişdir. Nəşr ensiklopedik xarakterlidir.[14]

H.Məmmədova Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, onun əsas mərhələləri, xüsusilə müstəqilliyin bərpasından sonrakı vəziyyətini araşdırmış, bu problemlə bağlı beynəlxalq təşkilatlar çərçivəsində görülən işlər, regional güc mərkəzlərinin tutduqları mövqeyə diqqət yetirilmişdir. Bu əsər təkcə Qarabağ münaqişəsi baxımından deyil, Naxçıvana ermənilərin yerləşdirilməsi və iddiaları tarixinin öyrənilməsi baxımından da ciddi əhəmiyyətə malik tədqiqatlardandır.[15]

Z.Şahverdiyev və İ.Zeynalovun birgə yazdıqları monoqrafiyanın bir fəsli "Naxçıvanda 1989-1993-cü illərin tarixi hadisələri" adlanır. Fəsil həcm etibarilə geniş və əhatəli olmasa da müəlliflər o dövrdə baş verən əsas proseslərə ümumi şəkildə diqqət yetirmişlər. Bununla yanaşı qeyd olunmalıdır ki, əsərdə həmin dövrdə muxtar respublikadakı proseslərin təsviri və təhlili sistemli xarakter daşımır.[16]

Ə.Cabbarlının monoqrafiyası Heydər Əliyev və Naxçıvan tarixi problemlərinə həsr olunmuşdur. Əsərin birbaşa tədqiqat obyekti hərbi-siyasi proseslərlə bağlı deyildir. Lakin siyasi lider və dövlət xadimi kimi Heydər Əliyevin Naxçıvan tarixi problemləri ilə bağlı baxışları, burada fəaliyyət göstərdiyi illər araşdırıldığı üçün əsəri mövzunun öyrənilməsi baxımından əhəmiyyətli mənbə hesab etmək olar.[17]

Həmzə Cəfərov və Abdulla Mustafayevin birgə müəllifi olduqları "Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri)" adlı əsər də mövzunun tədqiqi baxımından mühüm kitablardan biridir. Müəlliflər Qarabağ

---

[14] Əhmədov, E.İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011) Ensiklopedik nəşr / E.İ. Əhmədov. – Bakı: Letterpres, – 2012. – 101 s.

[15] Məmmədova, H.İ. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi / H.İ.Məmmədova. – Bakı: Elm, – 2009. – 360 s.

[16] Şahverdiyev, Z.Ə., Zeynalov, İ.A. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə: [Elektron kitab] / Z.Ə.Şahverdiyev. İ.A.Zeynalov. – Bakı: Qismət, – 2002. – 168 s.

[17] Cabbarlı, Ə. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri / Ə.Cabbarlı. – Naxçıvan: Əcəmi, – 2015. – 232 s.

müharibəsinin Naxçıvanın ictimai-siyasi həyatına təsirləri, Qərbi Azərbaycandan qovulanların Naxçıvan muxtar respublikasının şəhər və rayonlarında yerləşdirilməsi, Naxçıvanın blokadadan çıxarılması sahəsində ümummilli lider Heydər Əliyevin fəaliyyəti ilə bağlı mövzuları ətraflı tədqiq etmiş, dövrün mənbələrini tədqiqata cəlb etmişlər.[18]

H.Əliyevanın əsəri birbaşa olaraq həmin dövrdə baş vermiş hərbi proseslərə həsr olunmuşdur. Kitab publisistik bir dildə yazılmışdır. Burada sərhədboyu zonada yerləşən kəndlərin sakinlərinin, döyüşlərin iştirakçılarının birbaşa şahidlərinin fikir və ifadələri toplanmışdır.[19] Bu cəhətdən V.Məmmədovun "Sədərək döyüşləri" kitabı da oxşar xüsusiyyətlərə malikdir və diqqəti cəlb edir.[20] M.Şabanovun tədqiqatları isə başlıca olaraq ümummilli lider Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması sahəsindəki fəaliyyətinin tədqiqinə yönəlmişdir.[21]

Muxtar respublikanın xüsusən 1990-cı ilin yanvarından sonra Ermənistanın hərbi təcavüzünə qarşı beynəlxalq siyasi müstəvidə mübarizəsində, eləcə də hərbi təcavüzün meydana çıxardığı iqtisadi və sosial problemlərin aradan qaldırılmasında Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əlaqələr əhəmiyyətli rol oynamışdır. Bu baxımdan R.Rəhimovun "Naxçıvan Muxtar Respublikasının xarici əlaqələri (1991-2001-ci illər)" adlı dissertasiya işi[22], C.Cahangirlinin Azərbaycan-Türkiyə

---

[18] Cəfərov, H., Mustafayev, A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri) / H.Cəfərov, A. Mustafayev. – Bakı: Elm və təhsil, – 2012. – 170 s.

[19] Əliyeva, H. Naxçıvan necə döyüşdü, müdafiə olundu / H.Əliyeva. – Bakı: Şirvannəşr, – 2009. – 168 s.

[20] Məmmədov, V. Sədərək şəhidləri / V.Məmmədov. Novosibirsk: H.Əliyev adına Beynəlxalq Azərbaycan Forumu, – 2007. – 238 s.

[21] Şabanov, M.S. Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması sahəsində fəaliyyəti: / Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı: [Elektron resurs] / Heydər Əliyev İrsi Beynəlxalq Elektron Kitabxana, – 2012. URL: https://lib.aliyev-heritage.org/az/5057166.html

[22] Rəhimov, R.V. Naxçıvan Muxtar Respublikasının xarici əlaqələri: (1991-2001-ci illər): / tarix elmləri namizədi dis./ – Naxçıvan, 2002. – 147 s.

münasibətlərinə dair monoqrafiyası[23], E.Kəlbizadə, Y.Baxşıyeva, Ə. Əzimovun Azərbaycan-İran[24] və Ermənistan-İran[25] münasibətlərinə dair tədqiqatları xüsusi qeyd edilməlidir.

Bəzi digər müəlliflərin əsərləri (Hacıfəxrəddin Səfərli, Emin Şıxəliyev, Elman Cəfərli, Fəxrəddin Cəfərov və Nadir Hüseynbəyli, Abdulla Mustafayev) mövzunun açıqlanmasına xidmət edən hadisə və prosesləri əks etdirməsi baxımından əhəmiyyətlidir.[26]

2008-ci ildə nəşr olunmuş "Azərbaycan tarixi" çoxcildliyinin yeddinci[27], "Naxçıvan tarixi" üçcildliyinin üçüncü cildinin[28], 2006-cı ildə nəşr olunmuş "Heydər Əliyev və ordu quruculuğu"[29] adlı əsərin materialları da tədqiqata cəlb olunmuşdur.

Xarici ölkə müəlliflərindən H.Kurt, N.Sarıahmetoğlu, A.V. Antipov, A.A.Markarov, N.V.Kostenko, K.V.Kuzovkin, V.İ.Feskov, V.İ.Qolikov, K.A.Kalaşnikov, S.A.Sluqin, V.Şironin, T.E.Çaladzenin əsərlərində də mövzu ilə bağlı bəzi məqamlar öz əksini tapmışdır.[30]

---

[23] Cahangirli, C.X. Müasir dövrdə Azərbaycan – Türkiyə münasibətləri / C.X.Cahangirli. – Bakı: – 2006. – 109 s.

[24] Qasımlı, M.C., Kəlbizadə, E.H. və b. Heydər Əliyev və Qafqaz problemləri / M.C.Qasımlı, E.H.Kəlbizadə, G.M.Musayeva, S.İ.Həbibbəyli. – Bakı: Aspoliqraf, – 2023. – s. 256.

[25] Kəlbizadə E.H. Ermənistan İran İslam Respublikasının Qafqaz siyasətində / E.H.Kəlbizadə, Y.Ü.Baxşıyeva, Ə.D.Əzimov. – Bakı: MTM Innovation MMC, – 2019. – 360 s.

[26] Səfərli, F.Y. Heydər Əliyev irsi – əbədiyaşar təlim / F.Y.Səfərli. – Naxçıvan: Əcəmi, – 2014. – 200 s.; Şıhaliyev, E,A, Azerbaycan - Ermenistan ilişkilerinde Rusya ve İran Faktörü: / Tarih (genel türk tarihi anabilim dalında doktora tezi / – Ankara, 2004. – 192 s.; Arifoğlu (Şıhaliyev), E. Türkiye ve Azerbaycan açısından ermeni sorunu. Ankara, Türk Vakfı yayınları, – 2001, – 231 s.; Cəfərli, E.Y. Naxçıvanda erməni – Azərbaycan münaqişəsi / E.Y.Cəfərli. – Bakı: Nurlan, – 2008. – 280 s; Cəfərov, F.A., Hüseynbəyli, N. Naxçıvan tərəqqi illərində (1921-1946-cı illər) // – Naxçıvan: Naxçıvan Dövlət Universiteti Elmi əsərlər, – 2020. № 2 (103), – s. 19-24; Mustafayev, A.N. Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan / A.N.Mustafayev. – Bakı: ADPU-nin nəşriyatı, – 194 s.

[27] Azərbaycan tarixi: [7 cilddə] / – Bakı: Elm, c. 7. – 2008. – 570 s.

[28] Naxçıvan tarixi : [Üç cilddə] / – Naxçıvan: Əcəmi, c.3. – 2015. – 560 s.

[29] Heydər Əliyev və ordu quruculuğu / – Bakı: Adiloğlu, – 2006. – 480 s.

[30] Kurt, H. The Times Gazetesinde Dağlık Karabağ Olayları (1988-1991) // Tarih ve gelecek dergisi, – 2021, Mart.– Vol. 7, № 1, – s. 81-97; Sarıahmetoğlu, N. 21.

Hərbi təcavüzün gücləndiyi ən ağır dövrlərdə muxtar respublikaya, o cümlədən onun silahlı qüvvələrinə ali rəhbərliyi həyata keçirmiş komandan kimi ümummilli lider Heydər Əliyevin müxtəlif nitq və çıxışlarında o dövrün hadisələrinə dair faktlar, onlara obyektiv siyasi və tarixi münasibət ifadə edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin dövrlərin birbaşa olaraq şahidi olaraq zaman-zaman çıxışlarında Naxçıvanda 1988-1993-cü illərdə baş verən hərbi-siyasi proseslərə dair fikirlərini qeyd etmişdir. Beləliklə, "Müstəqilliyimiz əbədidir", "İnkişaf məqsədimizdir" və "Qayıdış" çoxcildlikləri tədqiqatın aparılması üçün əhəmiyyətli mənbələrdir.[31]

Həmin dövrün öyrənilməsi üçün mənbələrin mühüm bir hissəsini dövri mətbuatda ("Azərbaycan", "Xalq qəzeti", "Şərq qapısı", "Naxçıvan", "Ədalət", "Vedibasar" və s. (Azərbaycan); "Hürriyyet", "Milliyyet" (Türkiyə); "Krasnaya Zvezda" (Rusiya), və s. qəzetlər) çap edilmiş xəbərlər və məqalələr təşkil edir. Lakin bu cür mənbələrdən istifadə zamanı həmin dövrdə baş verən proseslərin ictimai-siyasi xarakteri nəzərə alınmış və məlumatlara tənqidi yanaşılmışdır.

---

Yüzyılında Hocalı olayları // Fırat Üniversitesi Orta Doğu Araştırmaları Dergisi, – 2013, c. IX, № 2, – s. 123 - 142; Антипов, А.В. Лев Рохлин: Жизнь и смерть генерала: [Электронный ресурс] / Royallib.com, – Москва: ЭКСМО - Пресс, – 1998. – 160 с.; Власть и диссиденты: из док. КГБ и ЦК КПСС / Подгот. Текста и коммент: А.А.Макаров, Н. В. Костенко, Г. В. Кузовкин. – Москва: Московская Хельсинкая Группа, – 2006. – 282 с.; Феськов В. И. и др. Вооружённые Силы СССР после Второй мировой войны: от Красной Армии к Советской / В.И.Феськов, В.И.Голиков, К.А.Калашников, С.А.Слугин. – Томск: Издательство Томского университета, ч. 1: Сухопутные войска – 2013., – 640 с.; Чаладзе, Т.Е. Карабахский геноцид: обреченный Ходжалы / Т.Е.Чаладзе; ред. Э. Тагиева. – Баку: Indigo, – 2009. – 846 с.; Широнин, В. КГБ-ЦРУ. Секретные пружины перестройки [Электронный вариант книга] / В. Широнин. – Москва: Ягуар, – 1997. – 131 с.

[31] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, c. 4, – 1997. 528 s.; c. 5, – 1998. – 500 s.; Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [Çoxcildli] / İ.H.Əliyev. – Bakı: Azərnəşr, c. 62, – 2018. – 400 s.; Qayıdış (1990-1993) / – Bakı: Azərbaycan, – 2008. – 840 s.; Qayıdış (1990-1993). Sənədlər toplusu. – Bakı: Azərbaycan, – 1996. – 780 s.

Tədqiqat işində istifadə olunan mənbələrin mühüm bir hissəsini arxiv sənədləri (Azərbaycan Respublikası Dövlət Arxivi və Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi) və rəsmi sənədlər (e-qanun.az) təşkil edir. Xüsusən Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin 2 nömrəli fondunda saxlanılan Naxçıvan Muxtar Respublikasının 1991 və 1992-ci illərdə qəbul etdiyi qərarların toplandığı işlər həmin dövrün tarixinə dair vacib əhəmiyyət daşıyan məsələlərin açıqlanmasına imkan verir.

Öyrənilən dövrün ən yeni tariximizə aid olması internet, video və foto resurslarının tədqiqat üçün əhəmiyyətini artırır. Tədqiqat prosesində həmin dövrdə müəyyən vəzifələr daşımış şəxslərlə müsahibələr, sorğular aparılmış, onların şəxsi arxivlərindəki materiallardan (məsələn, XX əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan Dövlət Milli Müdafiə Komitəsinin Əks-kəşfiyyat şöbəsinin rəisi olmuş Urfullah Qurbanovun və digərlərinin) və xatirələrindən istifadə olunmuşdur.[32]

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini 1988-1993-cü illərdə Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Ermənistanın işğalı təhlükəsinə qarşı mübarizəsi prosesi, predmetini isə Naxçıvan Muxtar Respublikasına qarşı Ermənistanın hücumlarını və hərbi təcavüzünü şərtləndirən səbəblər, ermənilərin hücum və basqınlarının təşkili formaları, muxtar respublikanın həmin dövrdə müdafiə potensialı, təcavüzkara qarşı mübarizənin formaları, hərbi təcavüzün regionun sosial-iqtisadi həyatına təsirləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Ermənistanın işğalı təhlükəsinə qarşı mübarizəsi tarixini regionda dəyişən hərbi-siyasi şərtləri nəzərə alaraq artıq açıqlana biləcək yeni məlumatlar, şahidlərin ifadələri və elmi dövriyyəyə gətirilmiş yeni materiallar əsasında araşdırmaqdır. Bunun üçün bir sıra vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

---

[32] Qurbanov, U.Ə., Qurbanova, R.U. Xüsusi tapşırıq / U.Ə.Qurbanov, R.U.Qurbanova. – Naxçıvan: Əcəmi, – 2023. – 208 s.; Воспоминания военного депутата о родине Гейдара Алиева / – Нахчыван: Аджеми, – 2019. – 152 с.

- SSRİ-nin tənəzzülü şəraitində Naxçıvanda imperiyaya qarşı siyasi mübarizənin hərbi proseslərə təsirlərinin araşdırılması;

- XX əsrin 80-ci illərində Ermənistanın Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qarşı hərbi təcavüzünün başlamasına və sərhədboyu toqquşmalara rəvac verən şərtlərin müəyyənləşdirilməsi;

- Post-sovet məkanında, o cümlədən Azərbaycan Respublikasında siyasi təlatümlərin baş verdiyi dövrdə muxtar respublikada siyasi sabitliyin təmin olunmasında ümummilli lider Heydər Əliyevin rolunun yeni faktlar və məlumatlar işığında təhlil edilməsi;

- Ermənistanın Naxçıvan Muxtar Respublikasına qarşı yürütdüyü hərbi təcavüzkarlıq siyasətinə qarşı xarici siyasi vasitələrlə mübarizənin əsas istiqamətlərinin və mexanizmlərinin tədqiqi;

- Naxçıvana qarşı Ermənistanın hücumlarının dayandırılması üçün silahlı mübarizənin təşkili formaları və mexanizmlərinin öyrənilməsi;

- Sədərək, Şahbuz, Culfa-Ordubad istiqamətlərində gedən döyüşlərin oxşar və fərqli xüsusiyyətlərinin müqayisəli təhlillər əsasında üzə çıxarılması;

- Hərbi və milli təhlükəsizliyə təhdidlər və onların aradan qaldırılması tədbirlərinin Naxçıvan MR Dövlət Milli Müdafiə Komitəsinin əks-kəşfiyyat şöbəsinin məlumatları və digər mötəbər mənbələr əsasında öyrənilməsi;

- Naxçıvandan rus qoşunlarının çıxarılması və milli ordunun formalaşdırılması tarixinin tədqiqi;

- İşğal və blokadanın birbaşa təsirləri ilə Naxçıvan Muxtar Respublikasında meydana çıxan iqtisadi və sosial problemlərin qruplaşdırılması və həmin dövrdə onların aradan qaldırılması istiqamətində fəaliyyətlərin araşdırılması.

**Tədqiqat metodları.** Dissertasiya işinin yazılması zamanı ən müxtəlif ümumi və xüsusi tədqiqat metodlarından – tarixi-genetik, tarixi müqayisəli, məzmun-təhlil – istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Mövzunun yeni mənbələr əsasında və artıq yeni dövrün hərbi-siyasi şərtləri kontekstində tədqiqi bir sıra müddəaların irəli sürülməsinə imkan verir:

- Ermənistanın Naxçıvana qarşı hərbi təcavüzü təkcə I Qarabağ müharibəsinin təzahürü deyil, ermənilərin Naxçıvanı ələ keçirməklə

bağlı əsassız iddiaları və məqsədləri nəticəsində meydana çıxmış hərbi proses olmuşdur. Bunu həm XIX əsrdən bəri erməni-terror siyasi təşkilatlarının fəaliyyəti, həm 70-80-ci illərdə dünyanın müxtəlif yerlərindəki təbliğatı, həm də Ermənistan SSR və Ermənistan Respublikasının hərbi-siyasi rəhbərliyinin bəyanatları sübut edir;

- Naxçıvan Muxtar Respublikasının Ermənistanın hərbi təcavüzünə qarşı mübarizəsində regiondakı Sovet silahlı qüvvələrinin hissələrinin yeri və rolu ilə bağlı məqamlar kifayət qədər mübahisəlidir. Bu qüvvələrin Ermənistana yardım etmək cəhdləri olsa da, bu cəhdlər xalqın güclü müqaviməti, muxtar respublikanın hərbi-kəşfiyyat qurumlarının fəaliyyəti və ən başlıcası Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində neytrallaşdırılmışdır;

- XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində Naxçıvana qarşı hücumları həyata keçirən silahlı dəstələri tarixşünaslıqda sadəcə olaraq könüllü silahlı birliklər, silahlı quldur dəstələri, qeyri-formal birləşmələr kimi xarakterizə etmək yanlışdır. Bu əslində Ermənistanın siyasi hakimiyyətinin XX əsrin 90-cı illərində törədilən qanlı hadisələrin məsuliyyətindən yayınmaq üçün istifadə etdiyi terminologiyadır. Əslində isə həmin silahlı birləşmələrin formalaşmasına Ermənistan SSR-in siyasi rəhbərliyi müxtəlif üsullarla dəstək vermişdir.

- Həmin dövrdə baş verən proseslərin qarışıqlığına və bütün çətinliklərə baxmayaraq Naxçıvanda fəaliyyət göstərən və milli qüvvələrin iştirakı ilə təşkil olunmuş hərbi-kəşfiyyat qurumları həm muxtar respublika, həm ölkənin digər əraziləri, həm də ölkə hüdudlarından kənarda, xüsusən təcavüzkar ölkənin ərazisində bir çox uğurlu və adekvat tədbirlər həyata keçirmişlər.

- Ermənistanın hərbi təcavüzünün təkcə siyasi deyil, həm də iqtisadi və sosial təsirləri olmuşdur. Bu təsirlər kifayət qədər ağır və əsasən mənfi yönlü olsa da, digər tərəfdən muxtar respublikanın xarici iqtisadi və humanitar əlaqələrinin genişlənməsinə, əhalidə blokada və fövqəladə situasiya şəraitində daha hazırlıqlı yaşam xarakterinin formalaşmasına səbəb olmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində ilk dəfə olaraq XX yüzilliyin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində Naxçıvan

Muxtar Respublikasının Ermənistanın hərbi təcavüzünə qarşı mübarizəsi kompleks şəkildə tədqiq edilmişdir. Baş verən hərbi proseslərin siyasi, iqtisadi və sosial təsirləri səbəb-nəticə əlaqəsi şəklində sistemləşdirilmişdir:

- Tarixşünaslıqda ilk dəfə olaraq Ermənistana qarşı mübarizə məqsədilə hərbi kəşfiyyat qurumlarının həyata keçirdiyi əməliyyatlar barədə məlumatlar elmi dövriyyəyə gətirilmişdir.[33]
- Ermənistanla sərhədboyu ərazilərdə baş verən toqquşmaların ərazi və rayonlaşdırılma prinsiplərinə görə xarakterik xüsusiyyətləri müəyyənləşdirilmişdir.[34]
- Uzun illər ərzində qapalı informasiya kimi qorunan Naxçıvan MR Dövlət Müdafiə Komitəsinin təşkilati strukturu ilə bağlı bir çox məqamlara ilk dəfə olaraq aydınlıq gətirilmişdir.[35]
- Naxçıvan Muxtar Respublikası istiqamətində Ermənistanın hərbi təcavüzünü həyata keçirən hərbi dəstələrin və siyasi birləşmələrin fəaliyyəti öyrənilmişdir.[36]

---

[33] Qurbanov, U.Ə., Qurbanova, R.U. Xüsusi tapşırıq / U.Ə.Qurbanov, R.U.Qurbanova. – Naxçıvan: Əcəmi, – 2023. – 208 s.; Qurbanova, R.U. Ulu öndər Heydər Əliyevin Naxçıvan dövrü fəaliyyəti və Milli Müdafiə Komitəsinin yaradılması // – Naxçıvan: "Naxçıvan" Universiteti. Elmi əsərlər. – 2020. № 4. – s. 175-181.; Qurbanova, R.U. Naxçıvan ermənilərin işğalçılıq planlarında // – "Beynəlxalq İpək Yolu və Naxçıvan" beynəlxalq elmi konfransı, – Naxçıvan: "Naxçıvan" Universiteti, – 22-23 noyabr, – 2022, – s. 429-432.

[34] Qurbanova, R.U. Ulu öndər Heydər Əliyevin Naxçıvan dövrü fəaliyyəti və Milli Müdafiə Komitəsinin yaradılması // – Naxçıvan: "Naxçıvan" Universiteti. Elmi əsərlər. – 2020. № 4. – s. 175-181.

[35] Qurbanov, U.Ə., Qurbanova, R.U. Xüsusi tapşırıq / U.Ə.Qurbanov, R.U. Qurbanova. – Naxçıvan: Əcəmi, – 2023. – 208 s.; Qurbanova, R.U. Ulu öndər Heydər Əliyevin Naxçıvan dövrü fəaliyyəti və Milli Müdafiə Komitəsinin yaradılması // – Naxçıvan: "Naxçıvan" Universiteti. Elmi əsərlər. – 2020. № 4. – s. 175-181.

[36] Qurbanova, R.U. Heydər Əliyev və Naxçıvandan başlanan ordu quruculuğu (1-ci hissə) // Naxçıvan: "Naxçıvan" Universitetinin Elmi Əsərlər jurnalı, – 2021. № 2, – s. 157-163.; Qurbanova, R.U. Heydər Əliyev və Naxçıvandan başlanan ordu quruculuğu (2-ci hissə) // – Baku: 2nd International congress of Azerbaijan's architect Heydar Aliyev in the 99th anniversary of his birth, – 2022, 10 may. – Baku: İKSAD, – 2022. – s. 218-222.; Qurbanova, R.U. Dağlıq Qarabağ hadisələri və

- İlk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında milli ordu quruculuğuna 75-ci moto-atıcı diviziya və 41-ci sərhəd dəstəsinin hərbiçilərinin silah, sursat və texnikaları təhvil verməklə Naxçıvan Muxtar Respublikasını tərk etmələrindən sonra deyil, ümummilli lider Heydər Əliyevin səyi ilə daha əvvələdən başlanıldığı faktlarla sübuta yetirilmişdir.[37]

- Ulu öndər Heydər Əliyevin Ermənistan tərəfindən Naxçıvanın işğal təhlükəsinə qarşı fəaliyyəti tədqiq edilmişdir.[38]

- Naxçıvan əhalisinin erməni işğalına qarşı mübarizəsi də tədqiqata cəlb edilmişdir.[39]

---

Naxçıvan // Beynəlxalq Sosial və Humanitar Elmlər üzrə III Qarabağ Müasir Tədqiqatlar Konqresi, – Qarabağ: İKSAD, – 07-10 iyun, – 2022, – s. 123-129.

[37] Qurbanova, R.U. Heydər Əliyev və Naxçıvandan başlanan ordu quruculuğu (1-ci hissə) // Naxçıvan: "Naxçıvan" Universitetinin Elmi Əsərlər jurnalı, – 2021. № 2, – s. 157-163.; Qurbanova, R.U. Heydər Əliyev və Naxçıvandan başlanan ordu quruculuğu (2-ci hissə) // – Baku: 2nd International congress of Azerbaijan's architect Heydar Aliyev in the 99th anniversary of his birth, – 2022, 10 may. – Baku: İKSAD, – 2022. – s. 218-222.

[38] Qurbanova, R.U. Ulu öndər Heydər Əliyevin Naxçıvan dövrü fəaliyyəti və Milli Müdafiə Komitəsinin yaradılması // – Naxçıvan: "Naxçıvan" Universiteti. Elmi əsərlər. – 2020. № 4. – s. 175-181.; Гурбанова, Р.У. Использование политико-дипломатических средств для предотвращения военной агрессии Армении против Нахичеванской Автономной Республики // – Bakı: Sosial Elmlər jurnalı, – 2024. № 1, – s. 104-114.; Gurbanova, R.U.Heydar Aliyev's role in eliminating threats to the military and national security of the Nakhchivan Autonomous Republic (1988-1993 years) // – Bakı: Geostrategiya jurnalı, – 2024. № 3, – s. 111-114.; Qurbanova, R.U. Heydər Əliyevin dövlətçilik fəaliyyətində hərb quruculuğu // – "Heydər Əliyev və milli dövlətçilik məsələləri" mövzusunda respublika elmi konfransı, – Naxçıvan: "Naxçıvan" Universiteti, – 25-26 may, – 2023, – s. 366-371.; Gurbanova, R.U. Relations between the Nakhchivan Autonomous Republic and Turkey during the blockade (1991-1993) // – Матеріали XLV-oї Міжнародної науково-практичної конференції, – 07 червня, – 2024. – Греція: – pp. 429-432.

[39] Qurbanova, R.U. Heydər Əliyev və Naxçıvandan başlanan ordu quruculuğu (1-ci hissə) // Naxçıvan: "Naxçıvan" Universitetinin Elmi Əsərlər jurnalı, – 2021. № 2, – s. 157-163.; Qurbanova, R.U. Heydər Əliyev və Naxçıvandan başlanan ordu quruculuğu (2-ci hissə) // – Baku: 2nd International congress of Azerbaijan's architect Heydar Aliyev in the 99th anniversary of his birth, – 2022, 10 may. – Baku: İKSAD, – 2022. – s. 218-222.; Gurbanova, R.U. İmpact of Armenia's military

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın muxtar respublikanın və ölkəmizin hərb tarixinin öyrənilməsi baxımdan elmi-nəzəri əhəmiyyəti vardır. Dissertasiya işinin başlıca müddəaları və nəticələrindən istifadə edilə bilər:

- Azərbaycanın hərb tarixinə həsr edilmiş ümumiləşdirilmiş əsərlərin, ali məktəblər üçün dərslik və dərs vəsaitlərinin yazılmasında;
- Ali məktəblərdə, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrində (akademiyalar, hərbi liseylər və s.) mühazirələrin oxunmasında və seminar dərslərində;
- Azərbaycanın hərbi və təhlükəsizlik siyasətinin formalaşdırılmasında iştirak edəcək mütəxəssislərin yetişdirilməsində;
- Ermənistanın gələcəkdə baş verə biləcək hərbi təcavüzkarlıq fəaliyyətlərinin əsas istiqamətlərinin proqnozlaşdırılmasında.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işində irəli sürülən elmi müddəalar və əldə olunmuş nəticələrlə bağlı müəllifin Azərbaycanda və xarici ölkələrin elmi jurnallarında məqalələri nəşr etdirilmişdir. Bununla yanaşı, tədqiq olunan mövzunun müxtəlif istiqamətləri ilə bağlı beynəlxalq və ölkə səviyyəli elmi toplantılarda məruzələr olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş (25 min 058 işarə), paraqraflara ayrılmış 3 fəsil ( I fəsil – 78 min 719 işarə; II fəsil – 119 min 075 işarə, III fəsil – 40 min 570 işarə), nəticə (13 min 008 işarə), istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələr hissəsindən ibarətdir. Dissertasiya işinin mətn hissəsinin ümumi həcmi 276 min 430 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

aggression on the socio-political process in Nakhchivan // – Naxçıvan: Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər, – 2024. № 3 (128), – s. 51-58.

Dissertasiyanın giriş hissəsində tədqiq edilən mövzunun aktuallığı bir neçə cəhətdən əsaslandırılmış, tədqiqat əsərlərinin və mənbələrin təhlili verilmiş, tədqiqat mövzusunun obyekti, predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilmiş, tədqiqat metodları barədə məlumat verilmişdir. Girişdə müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniklər, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır.

Dissertasiya işinin **birinci fəsli "XX əsrin 80-90-cı illərində Naxçıvanda sovet imperiyasına və Ermənistanın işğalı təhlükəsinə qarşı siyasi mübarizə"** adlanır və üç paraqrafdan ibarətdir. "**Ermənistanın Naxçıvana hərbi təcavüzünə təsir göstərən amillər və Naxçıvanda ictimai-siyasi vəziyyət"** adlanan ilk paraqrafda aparılan təhlillər XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində Ermənistanın Naxçıvan Muxtar Respublikasına qarşı hərbi təcavüzünün meydana çıxmasına imkan verən və ümumiyyətlə, tərəflər arasında münasibətləri gərginləşdirən bir neçə amili müəyyən etməyə imkan verir.

Gərginliyin təbii ki, ana qaynağı ermənilərin terror-siyasi təşkilatlarının, eləcə də Ermənistanın Azərbaycanın Naxçıvan diyarına qarşı XIX əsrdən bəri davam edən əsassız ərazi iddiaları idi. Münasibətləri gərginləşdirən digər bir amil Ermənistandan deportasiya edilmiş və bir qismi Naxçıvana pənah gətirmiş azərbaycanlıların taleyi məsələsi idi. 1988-ci ilin martında Ermənistanda azərbaycanlılara qarşı təzyiqlər və həyati təhdidlər güclənəndə qaçqınların bir qismi məhz Naxçıvan Muxtar Respublikasına üz tutmuşdu. Tarixi Vedibasar, Zəngibasar, Dərələyəz mahallarının ərazisində yaşayan azərbaycanlı əhali əsasən muxtar respublikanın paytaxtı Naxçıvan şəhərinə, Şərur və Ordubad rayonlarına köçürdülər.[40]

Naxçıvana qarşı Ermənistanın təcavüzünün güclənməsi həm də iqtisadi və siyasi qarışıqlıqlardan, çətinlikdən irəli gəlirdi. Xüsusən, keçmiş ittifaq üzvü olan dövlətlərin sərhədlərinin artıq müstəqil dövlətin sərhədinə çevrilməsi Ermənistan və Azərbaycan arasında

---

[40] Mustafayev, A.N. Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan / A.N.Mustafayev. – Bakı: ADPU-nin nəşriyatı, – s. 143.

gərginliyin qaynaqlarından biri idi. Uzun illər dondurulmuş ərazi və sərhəd məsələləri çətinliklər yaradırdı.

Ermənistanın Naxçıvan Muxtar Respublikasına hərbi təcavüzündə xarici amillər də əhəmiyyətli rol oynamışdır. Naxçıvanda XX əsrin 80-ci illərinin sonu – 90-cı illərin əvvəlllərində ictimai-siyasi vəziyyətə gəlincə Sovet imperiyasının hər yerində olduğu kimi bu dövrdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da imperiyaya qarşı etirazlar yüksəlirdi.

**“Naxçıvanda siyasi sabitliyin təmin olunmasında Heydər Əliyevin rolu”** adlanan ikinci paraqrafda qeyd olunur ki, Naxçıvanda milli azadlıq hərəkatı iştirakçılarının imperiyaya qarşı mübarizəsi, Ermənistanın hərbi təcavüzünə qarşı özünümüdafiə qüvvələri yaratmaları nə qədər təqdirəlayiq olsa da, daxildə siyasi sabitsizliyə də rəvac verirdi. Düşmənin sistemli hərbi təcavüzünə qarşı sistemsiz mübarizə tam effekt verə bilməzdi. Bütün Azərbaycanda olduğu kimi, mövcud kommunist hakimiyyəti və milli azadlıq hərəkatının iştirakçıları arasında qarşılıqlı ittihamlar qalmaqda idi. Belə bir vəziyyətdə siyasi sabitliyin təmin olunmasından ötrü birləşdirici liderə ehtiyac var idi. Həmin lider həm dağılmaqda olan sistemin xüsusiyyətlərini, müsbət və mənfi cəhətlərini bilməli, həm də xalqın mübarizəsini işğalçıya qarşı yönəltməyi bacarmalı idi. Belə bir şəxsiyyət Heydər Əliyev olmuşdur. Bu paraqrafda Heydər Əliyevin müxtəlif siyasi qüvvələri ümummilli məqsədlər uğrunda birləşdirməsi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri kimi fəaliyyəti təhlil edilmişdir.

Fəslin üçüncü paraqrafı isə **“Ermənistanın təcavüzkar siyasətinə qarşı xarici siyasi vasitələrlə mübarizə”** adlanır. 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzkarlığına qarşı xarici siyasi vasitələrlə mübarizə aparılması prosesi dörd başlıca istiqamətdə tədqiq edilmişdir:

- Müstəqilliyin elan edilməsinə qədərki dövrdə ittifaqın digər respublikalarının və mərkəzin hərbi-siyasi nümayəndələrinin vasitəçiliyindən istifadə edilməsi;
- Ermənistanın hərbi-siyasi rəhbərliyi ilə aparılan birbaşa danışıqlar;

- Ermənistanın hərbi təcavüzkarlığının qarşısının alınması prosesində coğrafi baxımdan qonşuluqda yerləşən dövlətlərin gücündən və təsir imkanlarından istifadə edilməsi;
- Daha böyük siyasi güc mərkəzlərinin və beynəlxalq təşkilatların diqqətinin Ermənistanın Naxçıvana qarşı hərbi təcavüzünə yönəldilməsi.

Ümumilikdə fəsildə aparılan tədqiqatlardan aydın olur ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qarşı Ermənistanın hərbi təcavüzü Qarabağ müharibəsinin təzahürü deyil, ayrıca bir hərbi siyasi prosesdir və ermənilərin Naxçıvana qarşı XIX əsrdən bəri irəli sürdükləri əsassız ərazi iddialarından irəli gəlir. Ermənistanın bu istiqamətdə aktiv hərbi ekspansiya həyata keçirməyə çalışmasına ilk növbədə muxtar respublikanın geostrateji mövqeyi əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Naxçıvan istiqamətində xüsusən Sədərək-Şərur xətti üzrə ardıcıl və kəskin hücumların məqsədi Azərbaycanla Türkiyə Cümhuriyyəti arasında quru əlaqəsinin tamamilə kəsilməsindən ibarət olmuşdur. Ermənistanın Naxçıvan Muxtar Respublikasına qarşı hərbi təcavüzü bəzi hallarda Sovet İmperiyasını qoruyub saxlamaq istəyən imperiya nümayəndələri və hərbi komandanlıq tərəfindən də dəstəklənmişdir. Bunda məqsəd Azərbaycanda milli azadlıq hərəkatının əsas ocaqlarından biri olan Naxçıvanda xalq hərəkatını boğmaq, əhalini milli müstəqillik hərəkatından geri çəkilməyə məcbur etmək olmuşdur. Ermənistan SSR-in mövcud olduğu tarixi Qərbi Azərbaycan ərazilərindən azərbaycanlı əhalinin qovulub çıxarılması, onların bir qisminin Naxçıvana üz tutaraq burada məskunlaşması da vəziyyəti gərginləşdirən amillərdən biri idi.

Belə bir şəraitdə Naxçıvan Muxtar Respublikasına gələn, əvvəlcə Azərbaycan SSR və Naxçıvan MSSR parlamentlərinə deputat, sonra isə muxtar respublika Ali Məclisinin Sədri seçilən Heydər Əliyev siyasi sabitliyin təmin olunmasında böyük rol oynadı. Siyasi sabitliyin təmin olunması üçün məqsədyönlü addımlar atdı. Siyasi mübarizənin oyun qaydalarını silahlı çevrilişlərlə pozmağa çalışan qüvvələri həm siyasi baxımdan, həm də hərbi baxımdan tərksilah etməyi bacardı.

1988-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasına qarşı Ermənistanın hərbi təcavüzünün qarşısını almaq üçün xarici siyasi

vasitələrlə mübarizədə bir neçə üsuldan istifadə edilirdi. Muxtar respublika rəhbərliyi və əhalisi hələ SSRİ-nin mövcud olduğu şəraitdə Ermənistanın hərbi təcavüzünün qarşısını almaq üçün imperiya mərkəzindən göndərilmiş hərbi-siyasi nümayəndələrin vasitəçiliyindən istifadə etməyə çalışırdı. Bununla paralel muxtar respublikaya rəhbərlik edən şəxslər Ermənistan rəhbərliyi ilə birbaşa danışıqlar da aparırdı. Xüsusən, Heydər Əliyevin dövründə aparılan danışıqlar kifayət qədər effektiv olmuş, Naxçıvanı daha böyük hərbi təcavüzdən və təhlükələrdən xilas etmişdir. Rus müəllifi Nikolay Zenkoviç Heydər Əliyevə həsr etdiyi əsərində bu məqama toxunaraq yazır ki, Heydər Əliyevin nüfuzu, beynəlxalq təcrübəsi, möhkəm iradəsi o illərdə muxtar respublikanı qorumuş, Qarabağda baş verənlərin burada da təkrarlamasına yol verməmişdir.[41] Bunun üçün o, Sovet İttifaqına rəhbərlik etdiyi dövrdə mövcud olan əlaqələrindən və şəxsi nüfuzundan istifadə edir, iti zəkası və faktlara dayanan nitqi ilə Ermənistan rəhbərliyini tez-tez çıxılmaz vəziyyətdə qoyurdu. Naxçıvanın yerləşdiyi geosiyasi mövqe buranı yaxın xarici ölkələr – Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası üçün də maraqlı edirdi. Heydər Əliyevin muxtar respublikaya rəhbərlik etdiyi dövrdə bu dövlətlərin Ermənistana təsir imkanlarından hərbi təcavüzün qarşısının alınması üçün istifadə edilirdi.

Dissertasiya işinin **"Naxçıvana qarşı Ermənistanın hücumlarının dayandırılması üçün silahlı mübarizə. Hərbi və təhlükəsizlik tədbirləri**" adlanan ikinci fəsli də üç paraqrafdan ibarətdir. **"Ermənilərin Naxçıvana qarşı hərbi təcavüzkarlıq fəaliyyətləri və onların qarşısının alınması"** adlanan birinci paraqrafda qeyd edilmişdir ki, Ermənistan SSR-in və bu ölkənin ərazisində fəaliyyət göstərən silahlı dəstələrin Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qarşı təxribatçı və təcavüzkar fəaliyyətləri hələ 1983-cü ildən başlamışdır. Bu cür təxribatçı, silahlı quldur dəstələrinə xaricdəki erməni diasporası və lobbi təşkilatları çox ciddi dəstək verirdilər. Bir çox hallarda əslində xaricdəki erməni təşkilatları Soveti İttifaqını dağıtmaq istəyən xarici ölkələrin xüsusi xidmət orqanları ilə

[41] Zenkoviç, N. Heydər Əliyev. Tale yolları / N.Zenkoviç. – Bakı: Azərbaycan nəşriyyatı, – 2007. – s. 403.

Ermənistan arasında əlaqələndirici rolunda çıxış edirdilər. XX əsrin 80-ci illərinin sonlarında ermənilərin ilk hərbi təxribatları Arazdəyən istiqamətində sərhədboyu zonada olmuşdur. 1988-ci ilin yayında Ermənilər Şahbuz rayonunda "Qanlı göl" istiqamətində yerləşən örüşləri ələ keçirməyə cəhd göstərsələr də, Naxçıvandakı milis qüvvələrinin sayıqlığı sayəsində bunun qarşısı alınmışdır.[42] Sədərək-Arazdəyən istiqamətində erməni təxribatları ilin sonuna doğru güclənmişdi. Erməni təxribatlarının genişlənməsinə və muxtar respublika ərazisinin işğal edilməsinə Sovet ordu hissələrinin tutduqları mövqe də ciddi təsir göstərirdi. Məhz bunun nəticəsi idi ki, Şərur rayonunun Kərki kəndi (hazırda Sədərək rayonunun inzibati vahidinə daxildir) işğal edilmişdir.[43] Həmin dövrdə baş verən hərbi toqquşmaların sistemli analizi Muxtar Respublikanın Ermənistanla həmsərhəd ərazilərini 3 döyüş zonasında bölməyə imkan verir. Birinci döyüş zonasını şərti olaraq Sədərək-Şərur müdafiə xətti, ikincisini Şahbuz müdafiə xətti, üçüncüsünü isə Culfa-Ordubad müdafiə xətti kimi xarakterizə etmək mümkündür.

Ermənistadan Naxçıvanın müxtəlif yaşayış məntəqələrinə edilən hücumların sayı 1991-ci ilin yanvarından etibarən artmağa başlamışdı. Əvvəlki fəsildə də vurğulandığı kimi, həmin ilin sentyabrında ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri seçilməsi təkcə SSRİ-nin və Azərbaycanın kommunist rəhbərliyini deyil, həm də işğalçı Ermənistanı narahat edirdi. Hələ 1990-cı ildə Naxçıvana qayıtdıqdan sonra SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sədri Vladimr Kryuçkov dəfələrlə Naxçıvana zəng etmiş, onu Moskvaya qayıtmağa razı salmağa çalışmışdır. DTK rəhbərliyi Heydər Əliyevə deyirdi ki, guya onun həyatı üçün Naxçıvanda təhlükə vardır.[44]

---

[42] Əliyeva, H. Naxçıvan necə döyüşdü, müdafiə olundu / H.Əliyeva. – Bakı: Şirvannəşr, – 2009. – s.75.

[43] Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında Naxçıvan MR Ali Məclisinin qərarı // Naxçıvan MR Dövlət Arxivi, Fond № 2, siyahı № 6, iş № 1039,– v. 17.

[44] Axundova, E. Şəxsiyyət və zaman [6 hissə] / E.Axundova. – Bakı: CBS, V hissə. – 2013. – s. 46.

Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrlərdə əsassız ərazi iddialarının qarşısının alınması ilə bağlı tədbirləri ermənilər unutmamışdılar. Başa düşürdülər ki, Heydər Əliyevin Naxçıvanı idarə etməsi Ermənistanın bu regionun işğalı ilə bağlı niyyətlərinin qarşısını qəti şəkildə alacaqdır. Məhz Heydər Əliyevin müdrikliyi sayəsində Naxçıvandakı bütün silahlı hissə və birləşmələr, o cümlədən Daxili İşlər Nazirliyi qüvvələri, könüllü müdafiə dəstələri Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin (DMK) rəhbərliyi altında vahid məqsəd uğrunda birləşdirilmişdi. Ermənistanın muxtar respublika ərazisində geniş miqyaslı hərbi ekspansiya həyata keçirməsinə imkan verilməmişdir. Bununla belə, qeyd edilməlidir ki, həmin dövrdə ərazisi 5.368 $km^2$ olan muxtar respublikanın 221 yaşayış məntəqəsindən 1-i - Sədərək rayonunun ərazisinin 0,5%-ni təşkil edən Kərki kəndi işğal edilmişdir. [45]

İkinci fəslin **"Hərbi və milli təhlükəsizliyə təhdidlər və onların aradan qaldırılması tədbirləri"** adlanan paraqrafı daha çox arxiv sənədləri və həmin dövrün şahidləri, prosesin iştirakçısı olmuş şəxslərin xatirələri əsasında yazılmışdır. Bu paraqrafda Naxçıvanda fəaliyyət göstərən xüsusi strukturların keçirdikləri əməliyyatlardan da bəhs edilmişdir. Paraqrafda aparılan təhlillərdən aydın olur ki, həmin dövrdə muxtar respublikanın Ermənistanın hərbi təcavüzünə qarşı ciddi şəkildə müqavimət göstərə bilməsinin əsas səbəblərindən biri hərbi və təhlükəsizlik sahəsində görülmüş işlər olmuşdur. Ümummilli liderin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlməsindən sonra Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvandakı hissə və birləşmələrinin statusu yüksəldilmiş, 1995-ci il iyunun 21-də 705 saylı motoatıcı briqada 705 saylı motoatıcı diviziyaya çevrilmişdir. 1998-ci il dekabrın 8-də isə həmin diviziyanın bazasında ordu korpusu yaradılmışdır.[46] Bu isə muxtar respublikanın daha etibarlı müdafiəsinin təmin edilməsinə imkan vermişdir.

İkinci fəslin üçüncü paraqrafı **"Naxçıvandan keçmiş Sovet ordusu hissələrinin çıxarılması və milli ordunun**

[45] Əhmədov, E. İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011) Ensiklopedik nəşr / E.İ.Əhmədov. – Bakı: Letterpres, – 2012. – s. 122.
[46] Naxçıvan ensiklopediyası [2 cilddə] / – Naxçıvan, c. 2. – 2005. – s. 85.

**formalaşdırılması"** adlanır. Burada Sovet Ordusu Quru Qoşunlarının Zaqafqaziya Hərbi Dairəsinin 4-cü Birləşmiş Silahlı Ordusunun tərkibində olan 75-ci motoatıcı diviziyanın, SSRİ DTK-nın Zaqafqaziya Sərhəd Dairəsinin tərkibində olan 41-ci Sərhəd Dəstəsinin Naxçıvandan çıxarılmasından, bu prosesdə təxribatların qarşısının alınmasından, silah-sursatın Naxçıvanda saxlanılması və milli ordu hissələrinə təhvil verilməsi prosesindən bəhs olunur.

Beləliklə, 1988-1993-cü illərdə Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qarşı Ermənistanın hərbi təcavüzünün qarşısının alınmasında siyasi vasitələrlə yanaşı, hərbi-təhlükəsizlik və müdafiə tədbirləri vacib rol oynamışdır. Düşmənin Naxçıvana faktiki olaraq üç istiqamətdən (Sədərək-Şərur, Babək-Şahbuz və Culfa-Ordubad) hücumlarına baxmayaraq Naxçıvan Muxtar Respublikası dəyanətlə müdafiə olunmuşdur. Ermənistana qarşı müdafiə tədbirlərinin həyata keçirilməsinin zəruriliyi muxtar respublikanın müstəqillik dövrü hərb tarixində önəmli nailiyyətlərə imza atmasına gətirib çıxarmışdır. İlk dəfə azərbaycanlı çağırışçıların ittifaqın digər ölkələrində deyil, məhz Azərbaycanda xidmət etməsi istiqamətində addım burada atılmış, nizami Milli Ordunun formalaşdırılmasına Heydər Əliyevin rəhbərliyi altında Naxçıvanda başlanılmışdır.

Ermənistanın hərbi təcavüzünün qarşısının alınmasında DMK əsas məsuliyyəti öz üzərinə götürmüş, sovet ordu sistemindən fərqli olan sistemdə döyüşən hissələr formalaşdırılmışdır. DMK-nın Əks-kəşfiyyat şöbəsi nəinki hərbi təhlükəsizlik, ümumilikdə muxtar respublikanın təhlükəsizliyinin təmin olunması işini həyata keçirmişdir. Naxçıvandan artıq Rusiya Federasiyasının nəzarətində olan keçmiş Sovet İttifaqı Silahlı Qüvvələrinin hissələrinin çıxarılması Ermənistanın bu istiqamətdə dəstəyini və manevr imkanlarını azaltmışdır. Naxçıvanı tərk edən qoşunların silah, hərbi sursat və texnikasını muxtar respublikaya təhvil verməsi müdafiə potensialının güclənməsinə, milli ordu hissələrinin daha yaxşı silahlanmasına gətirib çıxarmışdır. Düşmənin hücumlarının qarşısının siyasi vasitələr və hərbi-təhlükəsizlik tədbirləri ilə alınmasına baxmayaraq , hərbi təcavüzün sosial və iqtisadi təsirləri də olmuşdur.

Dissertasiya işinin üçüncü fəsli **"İşğal və blokada siyasətinin yaratdığı iqtisadi və sosial problemlər və onların aradan**

**qaldırılması istiqamətində fəaliyyətlər”** adlanır və iki paraqrafdan ibarətdir. Birinci paraqrafda **“İqtisadi təhlükəsizliyə təhdidlər və onların aradan qaldırılması tədbirləri”**ndən bəhs edilmişdir. 1988-ci ildən başlayan Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzü, eyni zamanda Naxçıvan Muxtar Respublikasını blokada vəziyyətində saxlaması muxtar respublikanın iqtisadi təhlükəsizliyi üçün ciddi təhdidlər yaradırdı. Naxçıvan MSSR-ni ölkənin ərazisinin digər hissələri ilə birləşdirən, Ermənistan ərazisindən keçən dəmiryolu xəttinin işində tez-tez fasilələr yaranırdı. Bu fasilələrin yaranmasına səbəb Ermənistan ərazisində meydana çıxan silahlı birləşmələrin dəmiryoluna hücumları, sərnişin qatarlarını saxlayaraq soyğunçuluqla məşğul olmaları, azərbaycanlı maşinist və sərnişinlərin həyatı üçün təhdid yaratmaları idi.

Hərbi təcavüz və blokadanın yaratdığı iqtisadi problemlər kifayət qədər ciddi olmuşdur. Elektrik və təbii qazın verilişində ciddi problemlər var idi, çörək növbələri gündəlik normaya çevrilmişdi. Bütün bunlara baxmayaraq Naxçıvan əhalisi iqtisadi çətinliklərə dözməyə, muxtar respublikanın müdafiəsini davam etdirməyə çalışırdı. Muxtar Respublika rəhbərliyi və müvafiq strukturları iqtisadi problemlərin həlli üçün ən müxtəlif üsullardan istifadə etməyə çalışırdılar. Ölkədə siyasi səbatsızlığın və anarxiyanın yarandığı şəraitdə iqtisadi vəziyyət daha də gərginləşirdi. Belə vəziyyətdə qonşu dövlətlərin imkanlarından istifadə edilirdi.

Üçüncü fəslin ikinci paraqrafın isə **“Hərbi təcavüz və blokadanın yaratdığı sosial problemlər və onların həlli”** adlanır. Tədqiq olunan dövrdə hərbi təcavüz və blokada şəraiti əhalinin miqrasiyasına da əsaslı şəkildə təsir göstərmişdi. Ermənistanın Naxçıvan Muxtar Respublikasına hərbi təcavüzü səbəbindən əhalinin digər ölkələrə və ölkənin digər rayonlarına emiqrasiyası ilə yanaşı, muxtar respublika daxilində müəyyən proseslər baş vermişdir. Məsələn, Kərki kəndinin əhalisinin köçməsinin, Sədərəyə aktiv hücumlar zamanı əhalinin yerdəyişməsinin kifayət qədər ciddi sosial fəsadları olmuşdur.

Eyni zamanda Qarabağ və Şərqi Zəngəzur ərazisində yerləşən rayonların Ermənistan tərəfindən işğalı bu bölgələrdə yaşamış

azərbaycanlı əhalinin bir qisminin də Naxçıvana gəlməsinə səbəb olmuşdur. Məsələn, 1993-cü ildə Kəlbəcərin işğalından sonra bu rayonun bir qrup sakini məhz Naxçıvan Muxtar Respublikasına gəlmişdir. Heydər Əliyevin göstərişi ilə muxtar respublikanın sosial inkişaf və müdafiə fondundan Naxçıvana gələn Kəlbəcər qaçqınlarının hər birinə 10 min rubl məbləğində yardım edilmişdir.[47]

Hərbi təcavüz təhsil sistemində də problemlərə yol açmışdı. Həmin dövrdə sərhədboyu yaşayış məntəqələrinə hücum edən erməni silahlı birləşmələrinin əsas hədəflərindən biri məhz məktəblər olurdu. İlk növbədə məktəb binaları digər evlər və tikililər ilə müqayisədə daha hündürmərtəbəli və nəzərəçarpan olduğu üçün raket zərbələrinə məruz qalırdı, digər tərəfdən isə bir çox hallarda müəyyən təhlükəsizlik xüsusiyyətləri nəzərə alınaraq ağır döyüşlər dövründə hərbi qərargahlar məktəblərin zirzəmisində yerləşdirilirdi.

Bununla yanaşı hərbi təcavüz yaşayış məntəqələrində mədəni infrastrukturun dağılmasına, tarixi və mədəni dəyərlərin zərbə almasına da səbəb olurdu. Erməni hərbi təcavüzünün ən böyük təsiri isə humanitar məsələlərlə bağlı idi.

1991-1992-ci illərin döyüşləri muxtar respublikanın bir çox rayonlarında sadə vətəndaşların mənzil məişət şəraitinə də ciddi zərbə vurmuşdu. Ən çox zərər çəkən rayon əsas döyüşlərin getdiyi Sədərək olmuşdu. Enerji təchizatındakı problemlər Naxçıvan, Şərur, Sədərək və digər rayonların ərazisində yerləşən ağacların demək olar ki, tamamilə qırılaraq yanacaq kimi istifadəsinə səbəb olmuşdu. Xəstəxanaların maddi texniki vəziyyəti kifayət qədər acınacaqlı idi.

İşğal və blokadanın yaratdığı problemlərdən biri də informasiya təhlükəsizliyi ilə bağlı idi. Muxtar respublikaya Heydər Əliyevin rəhbərlik etməyə başlamasından sonra bu istiqamətdə ölkə səviyyəsində informasiya boşluğunun yaranmamasından ötrü müxtəlif addımlar atılmışdı. Bununla bağlı müvafiq dövlət orqanlarına xüsusi tapşırıqlar verilmişdi. Naxçıvan həqiqətlərinin ölkənin paytaxtına və regionlarına yayılması üçün müxtəlif şəxs və cəmiyyətlərin gücündən istifadə edilirdi

[47] Qayıdış (1990-1993) / – Bakı: Azərbaycan, – 2008. – s. 640.

Beləliklə, bütün təhdidlərə və təzyiqlərə rəğmən Ermənistan və onu dəstəkləyən qlobal erməni lobbisi 1988-1993-cü illərdə Naxçıvanın işğalını həyata keçirə bilmədi. Sadalanan faktlardan, mötəbər mənbələr və sənədlərlə aparılan təhlillərdən də aydın olduğu kimi, ən ağır və böhranlı dönəmlərdə Naxçıvandakı özünümüdafiə, təhlükəsizlik qüvvələri, milli ordunun bölmə və birləşmələri ləyaqətlə və dəyanətlə düşmənə qarşı mübarizə aparmışdılar.

Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində ölkə səviyyəsində yaranmış iqtisadi və sosial böhran Naxçıvan Muxtar Respublikasına, o cümlədən buradakı əhalinin iqtisadi vəziyyətinə və sosial statusuna ciddi təsirlər göstərmişdir. Lakin Naxçıvan əhalisi həm iqtisadi, həm də sosial şərtlərin ağırlığına təmkinlə yanaşmış, Ermənistanın hərbi təcavüzünə qarşı mərdliklə dayanmışdır.

Dissertasiya işinin "**Nəticə**" hissəsində aparılan tədqiqatlar zamanı müəllifin gəldiyi elmi qənaətlər ümumiləşdirilmişdir. 1. 1988-1993-cü illərdə Ermənistanın Naxçıvana hərbi təcavüzü yalnız Qarabağ müharibəsinin bir təzahürü deyildi. Bu, birbaşa Naxçıvana yönəlmiş tarixi ərazi iddialarının davamı idi. 2. Ermənistan SSR Naxçıvana qarşı hərbi təcavüz həyata keçirmiş və bu təcavüz həm Sovet imperiyasını dağıtmaq istəyən qüvvələrin, həm də imperiyanı qorumaq istəyənlərin maraqlarına xidmət etmişdir. 3. Naxçıvanın strateji mövqeyi onu Türkiyə, İran və Ermənistan üçbucağında güclərin qarşıdurma nöqtəsinə çevirmişdir. İran Naxçıvanı bölgədə öz təsir gücünü artırmaq üçün strateji bir ərazi kimi görürdü, Türkiyə isə ortaq tarixi köklərə, tarixə və beynəlxalq müqavilələrə dayanaraq bölgədə öz təsirlərini gücləndirməyə çalışırdı. Regionda Türkiyənin təsir imkanları artır, bu isə digər güc mərkəzlərini narahat edirdi. 4. Ümummilli lider Heydər Əliyevin Naxçıvanda olması və muxtar respublikaya rəhbərlik etməsi burada siyasi sabitliyin təmin olunmasında həlledici rol oynamış, müxtəlif siyasi qüvvələri birləşdirmiş, Ermənistanın Naxçıvana qarşı hərbi təcavüzünün qarşısının alınmasında misilsiz əhəmiyyətə malik olmuşdur. 5. Ermənistanın hərbi təcavüzünə qarşı həm siyasi, həm də hərbi vasitələrlə mübarizə aparılmış, xüsusən Heydər Əliyevin rəhbərliyi altında diplomatik səylər və hərbi müdafiə sistemləri qurulmuşdur. 6. 1988-1991-ci illərdə Naxçıvanda Ermənistanın hücumlarına qarşı təşkil olunmuş silahlı mübarizə dağınıq xarakter daşısa

da, Dövlət Müdafiə Komitəsinin yaradılması ilə daha sistemli hala gəlmişdir. Bununla da hərbi təşkilatlanma prosesi başlamış, Naxçıvanın müdafiəsi daha sistemli şəkildə təşkil olunmuşdur. Bu proses müstəqil Azərbaycanın milli ordusunun formalaşmasında vacib mərhələ olmuşdur.
7. Ermənistanın təcavüzü nəticəsində Naxçıvanın iqtisadiyyatı, sənayesi və sosial həyatı ciddi zərbələr almış, muxtar respublika blokada vəziyyətinə düşmüşdür. Eyni zamanda əkin sahələrinə zərər dəymiş, kənd təsərrüfatının məhv olması iqtisadi vəziyyəti pisləşdirmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi məqalə və tezislərində öz əksini tapmışdır:**


1. Heydər Əliyev və Naxçıvandan başlanan ordu quruculuğu (1-ci hissə) // – Naxçıvan: "Naxçıvan" Universiteti. Elmi əsərlər, – 2021. № 2, – s. 157-163.
2. Heydər Əliyev və Naxçıvandan başlanan ordu quruculuğu (2-ci hissə) // – 2nd International congress of Azerbaijan's architect Heydar Aliyev in the 99th anniversary of his birth, – Baku: İKSAD, – 10 may, – 2022. – s. 218-222.
3. Ulu öndər Heydər Əliyevin Naxçıvan dövrü fəaliyyəti və Milli Müdafiə Komitəsinin yaradılması // – Naxçıvan: "Naxçıvan" Universiteti. Elmi əsərlər, – 2020. № 4. – s. 175-181.
4. Dağlıq Qarabağ hadisələri və Naxçıvan // – Beynəlxalq Sosial və Humanitar Elmlər üzrə III Qarabağ Müasir Tədqiqatlar Konqresi, – Qarabağ: İKSAD, – 07-10 iyun, – 2022, – s. 123-129.
5. Naxçıvan ermənilərin işğalçılıq planlarında // – "Beynəlxalq İpək Yolu və Naxçıvan" beynəlxalq elmi konfransı, – Naxçıvan: "Naxçıvan" Universiteti, – 22-23 noyabr, – 2022, – s. 429-432.
6. Heydər Əliyevin dövlətçilik fəaliyyətində hərb quruculuğu // – "Heydər Əliyev və milli dövlətçilik məsələləri" mövzusunda respublika elmi konfransı, – Naxçıvan: "Naxçıvan" Universiteti, – 25-26 may, – 2023, – s. 366-371.
7. Crisis situation. Nakhchivan (1991-1993 years) // – Bakı: Geostrategiya jurnalı, – 2024. № 2, – s. 101-104.

8. Ermənistanın işğal və blokada siyasətinin Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına təsirləri (1991-1993-cü illər) // – Ankara: Akademik tarih ve düşünce dergisi, –2024. Sayı 1, – s.745-759.
9. Relations between the Nakhchivan Autonomous Republic and Turkey during the blockade (1991-1993) // – Матеріали XLV-ої Міжнародної науково-практичної конференції, – 07 червня, – 2024. – Греція: – p. 429-432.
10. Heydar Aliyev's role in eliminating threats to the military and national security of the Nakhchivan Autonomous Republic (1988-1993 years) // – Bakı: Geostrategiya jurnalı, – 2024. №3, – s. 111-114.
11. Использование политико-дипломатических средств для предотвращения военной агрессии Армении против Нахичеванской Автономной Республики // – Bakı: Sosial Elmlər jurnalı, – 2024. № 1, – s. 104-114.
12. İmpact of Armenia's military aggression on the socio-political process in Nakhchivan // – Naxçıvan: Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər, – 2024. № 3 (128), – s. 51-58.

Dissertasiyanın müdafiəsi 11 aprel 2025-ci il tarixində saat $14^{10}$ – da Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 76, AMEA Naxçıvan bölməsi, əsas bina, I mərtəbə, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Naxçıvan Bölməsinin internet saytında yerləşdirilmişdir.

Avtoreferat 28 fevral 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.02.2025
Kağızın formatı: 60/84, 16/1
Həcm: 50.854
Tiraj: 100